**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 023/517

**Bakı şəhəri** "31" mart **2026-cı il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 06-31.03.2025-ci il tarixli rəsmi məlumatlarına əsasən, Mali Respublikasının Kulikoro (Koulikoro) vilayətində, Albaniya Respublikasının Tirana (Tiranë) vilayətində, Bolqarıstan Respublikasının Yambol (Yambol) vilayətində, Litva Respublikasının Klayped (Klaipedos) qəzasında, Banqladeş Xalq Respublikasının Kxulna (Khulna) vilayətində, Toqo Respublikasının Mərkəz (Centre), Maritaym (Maritime) vilayətlərində **yüksək patogen quş qripi** xəstəliyi, Monqolustanın Dornoqovi (Dornogovi), Xovd (Hovd) vilayətlərində **keçilərin yoluxucu plevropnevmoniya** xəstəliyi, Sloveniya Respublikasının Podravska (Podravska) regionunda isə qeydə alınmış **Nyukasl** xəstəliyi aradan qaldırılıb.

Belə ki, yuxarıda göstərilən ölkələrin həmin inzibati ərazi vahidlərində aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.1.** 21.05.2021-ci il tarixli 030/125 nömrəli qərarla Mali Respublikasının Kulikoro vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 05.11.2024-cü il tarixli 071/391 nömrəli qərarla Albaniya Respublikasının Tirana vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 15.11.2024-cü il tarixli 073/393 nömrəli qərarla Bolqarıstan Respublikasının Yambol vilayətinə tətbiq edilmiş məhdudiyyət;

ƏSLİ İLƏ DÜZDÜR

Axundova N.A.
31.03.26

**1.4.** 31.01.2025-ci il tarixli 008/414 nömrəli qərarla Litva Respublikasının Klayped qəzasına tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 01.04.2025-ci il tarixli 020/426 nömrəli qərarla Banqladeş Xalq Respublikasının Kxulna vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.6.** 01.04.2025-ci il tarixli 020/426 nömrəli qərarla Toqo Respublikasının Mərkəz (Centre), Maritaym (Maritime) vilayətlərində tətbiq edilmiş məhdudiyyət.

**Keçilərin yoluxucu plevropnevmoniya xəstəliyi üzrə:**

**1.7.** 15.11.2024-cü il tarixli 073/393 nömrəli qərarla Monqolustanın Dornoqovi vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.8.** 06.01.2025-ci il tarixli 001/407 nömrəli qərarla Monqolustanın Xovd vilayətinə tətbiq edilmiş məhdudiyyət.

**Nyukasl xəstəliyi üzrə:**

**1.9.** 20.02.2025-ci il tarixli 014/420 nömrəli qərarla Sloveniya Respublikasının Podravska regionuna tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** — **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Axundova N.A

31.03.26